# Perio & Diabetes

## Parodontit və şəkərli diabet : **iki tərəfli əlaqə**

### **Eyni vaxtda diabet** və **parodontit** olanda nə baş verir

Şəkərli diabet xəstəliyi, parodontitin **yayılmasını, inkişafını və şiddətini artırır.**

Parodontit — **risk** artır — Şəkərli Diabet

Parodontit diabet xəstəliyində **qanda şəkərin tənzimlənməsinə** təsir edir.



### Şəkərli Diabetin **ağırlaşmaları**

**İnsult**
Serebrovaskulyar ağırlaşmalara daha çox rast gəlinir.

**Retinopatiya**
Tor qişası venulalarının diametrinin genişlənməsi riski artır və diabetlə əlaqəli retinopatiya müşahidə olunur.

**Kardiovaskulyar ağırlaşmalar**
Ürəyin işemik xəstəliyi və ölümlə nəticələnən ürək tutması riski artır (10 ildə 22%)

**Böyrək çatışmazlığı** və **makroalbuminuriya**
Bütün səbəblərdən ölüm riski artır (10 ildə 41%)

## Parodontit və Şəkərli Diabet **bir baxışla**

1. Şəkərli diabet və parodontit yayılması yaşla artan **qeyri-yoluxucu xroniki** xəstəliklərdir.
2. Parodontit və şəkərli diabet arasında **iki tərəfli əlaqə** mövcuddur.
3. Parodontit müalicə olunmasa **diş itkisinə** səbəb olur.
4. Parodontit asanlıqla **diaqnoz olunan və kliniki nəzarətdə saxlanıla bilən bir xəstəlikdir.** Yüksək keyfiyyətli dəstəkləyici müalicə, kliniki nəticələrə müsbət təsir edir.
5. Tam nəzarət altında saxlanılmayan 1- və 2-ci tip diabetli şəxslər **parodontal iltihabın** artmasından əziyyət çəkir.
6. Parodontitli şəxslərdə prediabet və 2-ci tip şəkərli diabet xəstəliyinin inkişafı **riski yüksək olur**.
7. Hər 2 xəstəlik - şəkərli diabet və parodontiti olan şəxslər parodontin xəstəliyi olmayan, lakin şəkərli diabet xəstəliyi olanlarla müqayisədə **daha ağır və hətta ölümlə nəticələnən tibbi fəsadlarla üzləşir.**
8. Şəkərli diabeti olan şəxslərdə parodontal müalicədən üç ay sonra **qlikolizə olunmuş hemoqlobinin (HbA1c) səviyyələrində əhəmiyyətli bir azalma müşahidə olunur.** Hətta altı ay sonundakı nəticələr də bunu təsdiqləyir.
9. **Həm diabet, həm də parodontitin erkən diaqnostikası, profilaktikası,** həmçinin stomatoloqlar və endokrinoloqlar tərəfindən **nəzarət altında saxlanılması** çox vacibdir.
10. Uğurlu parodontal müalicə həm də **ümumi sağlamlıq baxımından kliniki əhəmiyyətə malikdir** və diabetli şəxslərin müalicəsində önəmli yer tutur.

## Diş ətinizi **qoruyun**, Diabetinizə **nəzarət edin.**

- həkiminizi müntəzəm ziyarət edin
- stomatoloqunuzu müntəzəm ziyarət edin
- diabetinizi kontrol altında saxlayın
- dişlərinizi gündə 2 dəfə fırçalayın
- çəkinizi gözləyin
- sağlam qidalanın siqaret çəkməyin


EFP European Federation of Periodontology

PERIOAZ AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ

Perio & Diabetes

SUNSTAR